**Eminov S.M.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2019.59.52-86**

# İnsan alveri cinayətinin ictimai təhlükəli nəticələri (statistik məlumatlar əsasında)

**Xülasə**: Ötən əsrin axırlarından, Sovetlər İttifaqının dağılmasından sonra daha vüsət alan qloballaşma prosesi müasir bəşəriyyəti müxtəlif zəmində baş verən lokal və iri miqyaslı silahlı münaqişələrin, transmilli, mütəşəkkil cinayətkarlığın getdikcə artan problemləri, böyük riskləri ilə qarşılaşdırmışdır. Cinayətkar qruplar ölkələrin siyasi, iqtisadi və mədəni baxımdan bir-biri ilə yaxınlaşmalarından, yeni əlaqələrin yaranmasından beynəlxalq miqyasda çirkin niyyətlərini həyata keçirmələri üçün istifadə edirlər. Cinayətkarlığın qlobal xarakter aldığı, yeni çağırış və təhdidlərin yarandığı müasir dövrdə dünya birliyini narahat edən ciddi problemlərdən biri də köləliyin müasir təzahür formalarından birinə çevrilmiş insan alveri əməlləridir. Acınacaqlı faktdır ki, 21-ci əsrdə köləlik nəinki aradan qalxmış, hətta daha təhlükəli formalarda yayılmaqda davam edir və bəzən onu “21-ci əsrin köləliyi”, yaxud “günümüzün köləliyi” adlandırırlar.

Müasir dövrdə heç bir dövlət, yəni hətta iqtisadi və sosial baxımdan inkişaf etmiş ölkələr birmənalı surətdə insan alveri problemi ilə qarşılaşmadıqlarını deyə bilməzlər. Çünki bu problemin artıq ölkənin geo-siyasi mövqeyindən, iqtisadi və sosial inkişaf səviyyəsindən asılı olmadığı kifayət qədər öz təsdiqini tapmışdır. İnsan alveri sosial planda müasir köləlik, kriminoloji aspektdə isə transmilli mütəşəkklil cinayətkarlığın həm təhlükəli təzahürü kimi, həm də ən “mənfəətli” növlərindən biri kimi çıxış edir. Bu fəaliyyət kriminal biznesin ən çox gəlir gətirən sahələrindən biri kimi “qara bazar”ın tələb və təkliflərinə, iqtisadiyyatda yaranan

♦ **Eminov Seyid Mahir oğlu** - AMEA Hüquq və İnsan Haqları institutunun doktorantı (Azərbaycan). E-mail: eminovseyd@mail.ru

qeyri-sabitliyə, qanunvericilikdə mövcud olan boşluq və ziddiyyətlərə, kifayət qədər sərt olmayan sanksiyalara dərhal adekvat reaksiya verə bilən dinamik və həssas bir neqativ hadisə kimi təzahür edir.

Şəxsin alqı-satqısı və ya ona sahibliklə əlaqədar digər əqdlərin bağlanması, yaxud onun istismar edilməsi mahiyyət etibarı ilə köləliyi ifadə edir. Bu baxımdan insan alveri cinayəti köləliyin təzahür formalarından biridir və müasir dövrdə həmin əməllər ilə mübarizə olduqca aktuallıq kəsb edir.

İnsan alveri eyni zamanda yalnız dövlətdaxili məsələ deyildir, həm də beynəlxalq problem sayılır. Bu kriminal əməl artıq müasir mütəşəkkil cinayətkarlığı yaradan mühüm elementlərdən birinə çevrilmişdir. Əməlin ictimai təhlükəliliyi ayrı-ayrı dövlətləri deyil, həm də beynəlxalq təşkilatların diqqətini cəlb etmişdir. Ona görə də beynəlxalq səviyyədə bu kriminal təzahür ilə mübarizəni tənzimləyən sənədlər qəbul olunmuşdur. Bu baxımdan insan alveri cinayəti həmçinin transmilli xarakter daşıyır.

Bəhs edilən cinayətin ictimai təhlükəlilik dərəcəsi həmçinin bu kriminal fəaliyyətin çox zaman digər ağır əməllərin törədilməsi ilə müşayiət olunması hesabına artır. Bu sırada, xüsusən, adam oğurluğu, qanunsuz azadlıqdan məhrum etmə, yetkinlik yaşına çatmayanları fahişəliyə və ya əxlaqsız əməllərə cəlb etmə, əxlaqsızlıq yuvaları saxlama, məcburi əmək və s. bu kimi ictimai təhlükəli əməllərin adlarını qeyd etmək olar.

İnsan alveri cinayəti həmçinin sosial-hüquqi təbiət nöqteyi-nəzərindən tamah-zorakı cinayətkarlığa aiddir ki, bu da onun təhlükəlilik dərəcəsini artıran növbəti əlamətlərdən biridir.

**Açar sözlər**: insan alveri; köləlik; muzdlu; seksual istismar; məcburi əmək; cinayətin qurbanı; insan orqanlarının alqı-satqısı; azyaşlı uşaq.

İnsan hüquqlarının ciddi pozuntusu kimi qiymətləndirilən insan alveri cinayəti transmilli xarakter daşımaqla, bir-birilə qarşılıqlı əlaqəli iqtisadi, sosial, mədəni,

siyasi və şəxsi amillərin doğurduğu mürəkkəb bir hadisədir. Bu, ilk növbədə, yoxsulluq, demokratik mədəniyyətin olmaması, gender bərabərsizliyi, qadınlara qarşı zorakılıq, silahlı münaqişələr və münaqişələrdən sonrakı vəziyyətlər, sosial inteqrasiyanın, məşğulluğun, təhsilə çıxış və s. imkanların olmaması, uşaq əməyi və ayrı-seçkilikdən irəli gələn neqativ sosial hadisədir və dünyanın bütün ölkələrində rast gəlinə bilən cinayətdir [5].

Beynəlxalq təşkilatların hesabatları göstərir ki, bu cinayət bütün dünyada sürətli artım tempinə malikdir, miqyasına və gəlirinin həcminə görə yalnız silah alveri və narkobiznes fəaliyyətindən geri qalır. 2005-ci ilin məlumatına görə, dünyada 12,3 milyon insan kölə vəziyyətində ağır fiziki əmək və fahişəliklə məşğul olmuş, hər il 600 mindən 800 minədək insan bu cinayətin qurbanı olmuşdur [22]. Dünyada həmin il təxminən 13 milyon nəfər insan məcburi əməyə (bunun 64 faizi xüsusi mülkiyyət sahəsinə, 24 faizi dövlət və hərbi sektora) cəlb edilmişdir. Məcburi məşğuliyyətin 43 faizi kommersiya yönlü cinsi istismar, 32 faizi əməyin istismarı, 25 faizi hər iki forma istismarın qarışığı şəklində olmuşdur. Məcburi əməyə cəlb edilənlərin yarıdan çoxunu – 56 faizini qadınlar təşkil etmişdir [18].

ABŞ hökumətinin 2008-ci il məlumatına görə, dünyada insan alveri qurbanlarının sayı 700 mindən 2-4 milyon nəfərə çatmışdır ki, bunların 80 faizini qadınlar və ya qızlar təşkil edir və 70 faizi seksual istismar məqsədi ilə digər ölkələrə satılır. İnsan alverindən əldə olunan illik gəlirin məbləği İnterpolun həmin il məlumatına görə 6-8 milyard dollar, ekspertlərin rəyinə görə isə 19-20 milyard dollar təşkil etmişdir [12].

Beynəlxalq təşkilatların hesabatlarına görə, 2009-cu ildə dünyada 12,3 milyon insan bu cinayətin qurbanı olmuşdur ki, onların da 56 faizini qadınlar və qızlar təşkil etmişdir. Dünya üzrə bu cinayətin qurbanlarının sayında hər 1000 nəfərə 1,8 nəfər, Asiya və Sakit Okeanı regionu ölkələrində isə hər 1000 nəfərə 3 nəfər düşür [3].

Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıqla Mübarizə İdarəsinin (UNODC) məlumatına əsasən, 2010-cu ildə Avropada il ərzində 140.000-dən çox qurban insan alveri əməllərinin tələsinə düşmüşdür. Hər il bu fəaliyyətin qurbanları sayına 70.000 nəfərə qədər istismara məruz qalan əlavə qurban daxil olur. 2012-ci ildə Beynəlxalq Əmək Təşkilatının (BƏT) hesablamasına görə, dünyada 20.9 milyon insan məcburi əməyin qurbanı olmuş, məcburetməyə, aldanmağa məruz qalmış və ya tərk edə bilmədikləri işin tələsinə düşmüşdür. Bunlardan 18.7 milyon nəfəri (90 faiz) özəl iqtisadiyyat sferasında istismara məruz qalmışdır. 14.2 milyon insan (68 faiz) kənd təsərrüfatı, tikinti, məişət işləri (ev qulluğu) və ya istehsal sahələrində, 2,2 milyon insan iqtisadiyyatın dövlət sektorunda əməyinin istismarının qurbanı olmuşdur. 4.5 milyon nəfər (22 faiz) cinsi istismara məruz qalmış, 5,5 milyon qurbanın yaş həddi 18-dən aşağı olmuşdur [19, s. 11].

Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondunun (UNICEF) hesablamasına görə, dünyada hər il 1.2 milyon uşaq insan alverinin qurbanı olur. Hər üç qurbandan biri demək olar ki, uşaq, bunlardan ikisi isə qız uşağıdır. BƏT-in hesablamasına görə, məcburi əməyə məruz qalanların 40-50 faizini 18 yaşadək olan şəxslər təşkil edir [5]. UNODC-un 21 dekabr 2016-cı ildə çap olunmuş məlumatına əsasən, insan alveri qurbanlarının hər üç nəfərindən birini uşaqlar, 71%-ni isə qadınlar və qızlar təşkil edir [15]. BMT-in Uşaq Fondunun 2018-ci il hesabatına görə, insan alveri qurbanlarının xüsusi çəkisində 28% pay uşaqlara məxsusdur. Fondun icraçı direktoru Q.For məruzəsində Saxaradan Afrikanın cənubuna doğru olan ölkələrdə bu göstəricinin 64% olduğunu göstərmişdir [20].

BMT-nin Baş Assambleyası insan alveri cinayətinin doğurduğu ağır nəticələri nəzərə alaraq, 2013-cü ildə 30 iyul tarixini "İnsan alveri ilə mübarizənin ümumdünya günü" kimi müəyyən etmişdir. Təşkilatın 2014-cü il üzrə hesabatına görə, hər il üçdən biri uşaq olmaqla, 20 milyondan çox şəxs insan alverinin qurbanına çevrilir. Onların 53 faizi cinsi istismara, 40 faizi məcburi əməyə, 7 faizi

orqan transplantasiyasına və digər məqsədlər üçün alqı-satqıya məruz qalır. 2011 - 2014-cü illərdə insan alveri ilə bağlı 25 mindən çox cinayət işinin istintaqı aparılmış, 133 min qurbanın hüququ bərpa olunmuş, 15 minə yaxın şəxs məhkum edilmişdir. Həmin illərdə təkcə Şərqi Avropa və Mərkəzi Asiya ölkələrində 30 minə yaxın şəxs insan alveri cinayətinin qurbanı olmuşdur ki, bunların da 71 faizini qadınlar və azyaşlı qızlar təşkil etmişdir [8].

2015-ci ildə təxminən 21 milyon nəfər "müasir köləliyin" qurbanı olmuş, bu növ cinayətlərin strukturunda qadınların cinsi istismar məqsədilə alqı-satqısının xüsusi çəkisi 53 faiz təşkil etmişdir. Məcburi əmək hallarının sayı da xeyli artmış və ağır sosial-iqtisadi vəziyyət səbəbindən öz daimi yaşayış yerini tərk edən daha 60 milyon şəxs risk qrupuna daxil olmuşdur. 2017-ci ildə 14.897 insan alveri faktı və 66.520 qurban müəyyən edilmiş, təqsirli şəxslər barəsində məhkəmələr tərəfindən 9.071 ittiham hökmü çıxarılmışdır. 2018-ci ildə 17.880 insan alveri cinayəti, 100 mindən çox qurban müəyyən edilmiş, təqsirli şəxslər barəsində məhkəmələr tərəfindən 7.045 ittiham hökmü çıxarılmışdır. İnsan alveri qurbanlarının sayının 25 milyona çatdığı (5.5 milyonu uşaqlardır), bunların 71 faizinin kişi, 29 faizinin qadın cinsinə məxsus olduğu, 64 faizinin məcburi əməyə, 18 faizinin isə seksual istismara məruz qaldığı qeyd edilmişdir [13].

Birləşmiş Millətlər Təşkilatının 2019-cu ildə yayımladığı növbəti qlobal hesabatda dünyanın əksər ölkələrində insan alveri cinayətlərinin sayının artdığı, bu əməllərin cəzasızlıq mühitinin hökm sürdüyü silahlı münaqişə zonalarında daha geniş yayıldığı, onun qurbanları arasında qadınların və azyaşlı qızların xüsusi çəkisinin 70 faiz həddə çatdığı göstərilmişdir. Aşkarlanmış cinayətlərin 59 faizinin cinsi istismar, 34 faizinin məcburi əmək faktlarını təşkil etməsi, ayrı-ayrı dövlətlərdə insan alverinin qanunsuz transplantasiya, cinayətkar fəaliyyətə cəlb etmə və övladlığa götürmə yolu ilə törədilməsi kimi təzahür etdiyi vurğulanmışdır. Beynəlxalq Əmək Təşkilatının 2019-cu il hesablamalarına əsasən, hazırda dünyada müasir köləliyin qurbanı vəziyyətində 40,3 milyon insan vardır. Onlardan 16

milyonu ev qulluğu, tikinti sektoru, kənd təsərrüfatı sahələrində məcburi əməyə, 4,8 milyonu cinsi istismara məruz qalanlardır. Hər dördüncü qurban azyaşlı oğlan və ya qız uşağıdır [6].

İnsan alveri sahəsində milli hökumətlərin məlumatları ilə beynəlxalq ekspertlərin məlumatları bəzən üst-üstə düşmür. Bu, xüsusən, keçmiş Sovetlər İttifaqına daxil olmuş ölkələr, habelə Mərkəzi Asiya dövlətləri üçün xarakterikdir. Məsələn, Beynəlxalq Miqrasiya Təşkilatı 2015-ci ildə Türkmənistanda insan alveri ilə bağlı 40 faktın, yerli hökumət isə cəmi 12 faktın, Tacikistanda 56 faktın, yerli hökumət isə 8 faktın, 2016-cı ilin birinci yarımilliyində Qırğızıstanda 175 faktın, yerli hökumət isə cəmi 8 faktın olduğunu göstərmişdir. Mərkəzi Asiyada insan alverinin, əsasən, iki formasına rast gəlinir: 1) insan alverinin köləlik məqsədi ilə edilməsi; 2) qadın və uşaqların seksual istismarı. UNODC-un məlumatına əsasən, 2016-cı ildə Mərkəzi Asiya ölkələrində insan alveri qurbanlarının 63 faizini kişilər, 31 faizini qadınlar, 4 faizini qadın cinsindən olan uşaqlar, 2 faizini kişi cinsindən olan uşaqlar təşkil etmişdir. Bu ölkələrdə insanların müəyyən hissəsinin stabil əmək haqqı ala bilməmələri, maddi həyat şəraitlərinin ağır olması miqrant olmalarına, nəticədə kölə vəziyyətinə düşmələrinə gətirib çıxarır və insan əməyinin istismarının xüsusi çəkisinin seksual istismardan çox olmasını şərtləndirir. 18-35 yaş arasında olan və təhsil səviyyəsi və peşə bacarığı aşağı olan kişilər bu sahədə risk qrupuna daxildirlər. Region ölkələri içərisində bəziləri təkcə insan alverinin təkcə mənbəyi kimi deyil, həmçinin təyinat ölkəsi kimi çıxış edir. Məsələn, Qazaxıstan Respublikasının iqtisadi və sosial imkanları regionun digər ölkələri ilə müqayisədə nisbətən üstün olduğundan, insan alveri üçün həm mənbə, həm də təyinat ölkəsi sayılır [23].

Özbəkistan kişilərin, qadınların, habelə uşaqların, xüsusən, məcburi əməyə cəlb edildiyi mənbə ölkələrdən biri kimi çıxış edir və bu, əsasən, pambıq istehsalı ilə bağlıdır. Belə ki, ölkə pambıq istehsalının həcminə görə dünyada 5-ci yerdə dayanır. Dünya bankı hər il ölkəyə pambıq istehsalından ötrü pul vəsaiti yatırır.

Özbəkistanda insan alverinin vəziyyətinə dair 2016-cı il hesabatına əsasən, ölkə bu ictimai təhlükəli əməlin ləğv edilməsinin minimal standartlarına tam ölçüsü ilə hələ də cavab verməmiş və 3-cü kateqoriya ölkələr siyahısında qərarlaşmışdır. Halbuki ölkə 2013-cü ildən Beynəlxalq Əmək Təşkilatına pambıq yığımı dövründə uşaq əməyindən istifadənin, 2015-ci ildən isə məcburi əməkdən istifadənin yoxlanılmasına icazə vermiş, ölkədə transmilli insan alveri fəaliyyəti təqib olunmuş, bu fəaliyyətin qurbanlarının reabilitasiyası mərkəzlərinə maliyyə vəsaiti ayrılmışdır. Bununla belə, 2016-cı ildə ölkədə hökumət tərəfindən təşkil olunmuş pambıq yığımı dövründə məcburi əməkdən istifadə yenə də geniş həcmdə olmuş, pambıq məhsulunun alışına və işçi qüvvəsinin cəlb edilməsinə ucuz qiymət tətbiq olunmuş, epizodik olsa da, uşaq əməyindən istifadə mövcud olmuş, yerli məmurlar tərəfindən müstəqil ekspertlərə müşahidələrin aparılmasına imkan verilməmişdir. Ölkə xaricində Özbəkistanın qadınları və qız uşaqları, əsasən, Yaxın Şərq, Avrasiya və Asiya ölkələrində cinsi istismara məruz qalmış, kişiləri Rusiya, Qazaxıstan, Türkiyə, Ukrayna, Birləşmiş Ərəb Əmirliyi dövlətlərində tikinti, neft-qaz, kənd təsərrufatı sahələrində məcburi əməyə məruz qalmışdır [11].

Avstraliyanın ixtisaslaşmış Walk Free Foundation ictimai təşkilatının köləliyin qlobal indeksi məlumatlarına əsasən, Özbəkistanda əhalinin hər 1000 nəfərinə 5.2 nəfər kölə düşür. Dünya bankı 2014-cü ildə pambıq istehsalında uşaq əməyindən istifadə olunacağı təqdirdə bura pul vəsaiti yatıracağından imtina edəcəyini bildirmişdir. Human Rights Watch təşkilatının apardığı araşdırmaya görə, Dünya Bankının mümayəndələri bu sahədə vəziyyəti yoxlamaq üçün hökumətin əməkdaşları ilə birlikdə əvvəlcədən müəyyən etdikləri fermerlərin ərazilərini gəzmiş, yalnız onları sorğu-sual etmiş və həqiqi mənzərənin nədən ibarət olduğunu müəyyən etməmişlər [14].

27 sentyabr 2017-ci ildə Özbəkistanın baş naziri “Pambıq yığımında məcburi əməyə qarşı mübarizə haqqında” sərəncam imzalamışdır. ABŞ hökumətinin insan alveri sahəsində vəziyyətə dair illik - 2017-ci il hesabatında Özbəkistan 3-cü

kateqoriya ölkədən 2-ci kateqoriya ölkə sırasına daxil edilmişdir. Ölkənin səviyyəsinin artması, əsas etibarı ilə, pambıq yığımı üzrə ucuz işçi qüvvəsindən istifadənin, tələbələrin, müəllimlərin, büdcə təşkilatlarında çalışan şəxslərin bu əməyə cəlb edilməsinin qadağan edilməsi sahəsində əldə olunmuş nailiyyətlər ilə bağlı olmuşdur. ABŞ Dövlət Departamentinin müsbət rəy verməsinə Beynəlxalq Əmək Təşkilatının və Ümumdünya Bankının 2017-ci ilin sentyabr-oktyabr ayları (pambıq yığımı dövründə - S.İ.) ərzində topladığı material da kömək etmişdir. Belə ki, həmin təşkilatların ekspertləri tərəfindən bu dövrdə 500-dən çox məktəb, tibb müəssisəsi və sair büdcə təşkilatlarında monitorinqlər keçirilmiş, 3000-dən çox insan ilə sorğu aparılmışdır [10].

Walk Free Foundation təşkilatının köləliyin qlobal indeksi məlumatlarına əsasən, 2016-cı ildə dünyada 40 milyon insan kölə vəziyyətində olmuşdur. Onlar, əsasən, dağ-mədən sənayesi və kənd təsərrüfatı sahələrində qeyri-sağlam şəraitdə və əmək haqqı almadan işləyən insanlardır. Təşkilat əhalinin ümumi sayını nəzərə almaqla kölə əməyinin tətbiq edildiyi ölkələri ardıcıllıqla sıralamış və bu ölkələrə Rusiyanı, Türkiyəni, Ukraynanı, Türkmənistanı, Belarusu, Makedoniyanı aid etmişdir. BMT-nin hesabatına əsasən, Rusiya kölə vəziyyətində işləyənlərin sayına görə dünyanın ilk onluğuna daxil olan ölkələrdən biridir. Burada 794 min nəfər iradəsinə zidd surətdə əmək fəaliyyəti ilə məşğul olur. Rusiyada orta hesabla hər 1000 nəfərə 5.5 nəfər kölə (ya seksual istismar, ya da əməyin istismarı) düşür. Belarusda hər min nəfərə 10.9 nəfər, Ukraynada 6.4 nəfər, Qazaxıstanda isə 4.2 nəfər düşür. Bu ölkələrdə kölə vəziyyətə düşmənin əsas səbəbi kimi iqtisadi çətinliklərin olduğu qeyd edilir. Rusiya insan alverinin həm mənbə, həm də təyinat ölkəsi sayılır. Məsələn, əgər İngiltərə və Almaniya qız uşaqlarını, əsasən, qəbul edən və daha çox Nigeriyadan qəbul edən ölkələr sayılırsa, Rusiya həm qəbul edən (əsas etibarı ilə Ukraynadan, Belarusdan, Nigeriyadan və Mərkəzi Asiya ölkələrindən), həm də ixrac edən (Türkiyəyə, Birləşmiş Ərəb Əmirliklərinə, Kiprə, Qərbi Avropa dövlətlərinə) ölkə sayılır [14].

2018-ci ilin 28 iyun tarixində ABŞ Dövlət Departamentinin insan alveri sahəsində vəziyyət üzrə illik hesabatı ABŞ-ın dövlət katibi Mayk Pompeo və ABŞ Prezidentinin müşaviri İvanka Tramp tərəfindən təqdim olunmuşdur. Məruzə dünyanın 187 ölkəsində insan alveri sahəsində vəziyyəti əhatə etmişdir. Dünyanın 43 ölkəsi, o cümlədən İraq, Kuba, Sudan, keçmiş Sovet İttifaqına daxil olmuş ölkələrdən Özbəkistan, Tacikistan, Qırğızıstan üçüncü kateqoriya ölkələr sırasına daxil edilmişdir. Bu ölkələrdə ya milli hökumətlərin səylərinə baxmayaraq, insan alveri əməllərinin sayında artım dinamikası davam edir, ya da milli hökumətlər bu əməllər ilə mübarizədə səylərini artırmalarını təsdiq edən sübutları təqdim edə bilməmişlər. İkinci kateqoriya ölkələr insan alveri ilə mübarizə sahəsində minimal standartlara tam ölcüdə cavab verməsələr də, bu standartların təmin edilməsi üçün ciddi şəkildə səy göstərirlər. Bu qrupa dünyanın əksər ölkəsi (105 dövlət), o cümlədən Pakistan, Əfqanıstan, Albaniya, Makedoniya, Kosova, Rumıniya, Serbiya, keçmiş Sovet İttifaqına daxil olmuş ölkələrdən Qazaxıstan, Moldova, Azərbaycan və Ermənistan daxil edilmişdir. Üçüncü kateqoriya ölkələr insan alveri sahəsində minimal (zəruri) standartlara riayət edən dövlətlərdir. Bu sıraya 39 dövlət, əsasən, qərb dövlətləri, keçmiş Sovet İttifaqından isə yalnız Gürcüstan daxil edilmişdir [9].

Azərbaycan Respublikası Prezidenti cənab İ.H.Əliyev tərəfindən insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsinin dövlətin ali məqsədi olduğu, insan alveri əməllərinin insan hüquqlarını pozduğu, insan ləyaqəti ilə bir araya sığmadığı və insanların həyatı üçün ciddi təhlükə yaratdığı qeyd edilmiş, 2004-cü il 6 may tarixində 208 nömrəli Sərəncam ilə "Azərbaycan Respublikasında İnsan Alverinə qarşı Mübarizə üzrə Milli Fəaliyyət Planı" təsdiq edilmişdir. Milli Fəaliyyət Planında insan alverinə qarşı mübarizənin bütün aspektlərini özündə birləşdirən və səmərəli surətdə əlaqələndirilə bilən sistemin, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi tərkibində insan alverinə qarşı xüsusi polis qurumunun yaradılması, Azərbaycan Respublikası qanunvericiliyinin bu sahədə

müvafiq beynəlxalq sənədlərə uyğunlaşdırılması, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində bu əmələ görə məsuliyyətin nəzərdə tutulması, cinayət qurbanlarının zərər çəkmiş şəxs kimi tanınması və onların hüquqlarının, habelə təhlükəsizliyinin təmin edilməsi, insan alveri cinayətləri ilə bağlı əməliyyat-axtarış fəaliyyətinin və cinayət təqibinin həyata keçirilməsi və s. mühüm vəzifələrin həlli müəyyən edilmişdir [4].

Bu Fəaliyyət Planına uyğun olaraq “İnsan alverinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının 28 iyun 2005-ci il tarixli 958-IIQ №li Qanunu qəbul edilmiş, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə müvafiq əlavə və dəyişikliklər edilmiş, 30 senytabr 2005-ci il tarixli Qanun ilə CM-nə insan alverinə görə məsuliyyət nəzərdə tutan 144-1-ci maddə daxil edilmişdir. Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən “İnsan alveri qurbanları üçün xüsusi müəssisələrin yaradılması, maliyyələşdirilməsi, fəaliyyəti, habelə onların fəaliyyətinə nəzarət Qaydaları”, “İnsan alveri qurbanlarının dərhal və maneəsiz xüsusi polis qurumuna təhvil verilməsi Qaydaları”, “İnsan alveri qurbanlarının sosial reabilitasiyasının həyata keçirilməsi Qaydaları”, “İnsan alverindən zərər çəkmiş şəxslərə reinteqrasiya dövründə ödənilən müavinətin məbləğinin müəyyən edilməsi barədə” Qərar, “İnsan alveri qurbanlarına kömək Fondu haqqında Əsasnamə” qəbul edilmişdir. 2004-cü ildə Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi nəzdində İnsan alverinə qarşı mübarizə İdarəsi təsis edilmiş, 2006-cı ildən etibarən isə həmin idarənin nazirlik strukturunda müstəqil qurum kimi fəaliyyəti  təmin edilmişdir. İnsan alverinin qurbanlarına və potensial qurbanlarına ölkə ərazisində ödənişsiz xidmət göstərən «Qaynar xətt» telefon xidməti fəaliyyətə başlamışdır. Cinayətin qurbanları üçün təhlükəsiz sığınacaq istifadəyə verilmiş, sığınacaq daxilində insan alverinin qurbanlarına tibbi, psixoloji, hüquqi və digər yardımın göstərilməsi təmin edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 6 fevral tarixli 133 nömrəli Sərəncamı ilə təsdiq edilmiş növbəti “Azərbaycan Respublikasının İnsan alverinə

qarşı mübarizə üzrə Milli Fəaliyyət Planı (2009-2013-cü illər)" insan alverinin qarşısının alınması və profilaktikasının gücləndirilməsini, bu sahədə qanunvericiliyin, cinayət təqibinin, insan alveri qurbanlarının müdafiəsinin və sosial reabilitasiyasının təkmilləşdirilməsini və s. mühüm tədbirlər sistemini nəzərdə tutmuşdur [1].

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 24 iyul tarixli 667 nömrəli Sərəncamı ilə təsdiq edilmiş üçüncü "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2014-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nda "İnsan alverinə qarşı mübarizə haqqında" Avropa Şurası Konvensiyasından irəli gələn öhdəliklərin yerinə yetirilməsi, 2008-ci il noyabrın 17-də Azərbaycan Respublikasının qoşulduğu "Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında" Avropa Şurası Konvensiyasının ratifikasiya edilməsi, "İnsan alveri qurbanları ilə bağlı Milli İstiqamətləndirmə Mexanizmi Qaydaları"nın, "İnsan alveri qurbanlarının müəyyən edilməsi Qaydaları (indikatorları)"nın, "İnsan alveri qurbanları üçün xüsusi müəssisələrin yaradılması, maliyyələşdirilməsi, habelə onların fəaliyyətinə nəzarət Qaydaları"nın, "İnsan alveri qurbanlarına kömək fondu haqqında Əsasnamə"nin, "İnsan alverinə şərait yaradan sosial problemlərin aradan qaldırılması üzrə Proqram"ın və digər normativ hüquqi aktların təkmilləşdirilməsi, habelə insan alveri əməllərinin qurbanına çevrilmə riskinin azaldılması məqsədi ilə həssas qrupa aid olan qadın və uşaqların hüquqi və sosial müdafiəsinin gücləndirilməsi istiqamətində müvafiq işlərin görülməsi nəzərdə tutulmuşdur [2].

Azərbaycan Respublikası 2 aprel 2002-ci il tarixli 285-IIQ №li Qanunla "Uşaq hüquqları haqqında" BMT Konvensiyasının Uşaq alverinə, uşaq fahişəliyinə və uşaq pornoqrafiyasına dair Fakultativ Protokoluna qoşulmuşdur. Dövlətimiz 13 may 2003-cü il tarixli 435-IIQ №li Qanun ilə isə BMT Baş Məclisinin 15 noyabr 2000-ci il tarixli 55/25 saylı Qətnaməsi ilə qəbul edilmiş və 2000-ci il dekabrın 12-də Palermo şəhərində imzalanmış "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı

Konvensiyasını tamamlayan, insan alverinin, xüsusən, qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması" haqqında Protokolu, habelə 2002-ci il sentyabrın 20-də qəbul edilən "İnsan alverinin qarşısının alınması və ona qarşı mübarizə haqqında" Brüssel Bəyannaməsini təsdiq etmişdir. 12 oktyabr 2004-cü il tarixli 769-IIQ №li Qanunla BMT-nin "İnsan alverinə və fahişəliyin üçüncü şəxslər tərəfindən istismarına qarşı mübarizə haqqında" 1950-ci il 21 mart tarixli Konvensiyanın Yekun Protokolu təsdiq edilmişdir.

Ölkəmiz insan alveri əməlləri ilə mübarizə sahəsində təkcə BMT səviyyəsində deyil, Avropa Şurasının, Müstəqil Dövlətlər Birliyinin regional səciyyə daşıyan sazişlərinə də qoşulmuşdur. Belə ki, 23 may 2006-cı il tarixli Qanunla "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlər arasında insan alverinə, insan orqanları və toxumalarının qanunsuz ticarətinə qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında" Sazişi, 30 dekabr 2008-ci il tarixli Qanunla "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin insan alverinə qarşı mübarizə sahəsində 2007 - 2010-cu illər üçün əməkdaşlıq Proqramı haqqında" 2006-cı il noyabrın 28-də Minsk şəhərində imzalanmış Qərarı ona dair xüsusi rəyi ilə, 11 may 2010-cu il tarixdə isə Avropa Şurasının "İnsan alverinə qarşı mübarizə haqqında" 2005-ci il mayın 16-da Varşava şəhərində imzalanmış Konvensiyasını, ona dair bəyanatları ilə birlikdə, təsdiq etmişdir (yeri gəlmişkən, qeyd edək ki, bu konvensiya Avropa Şurasının üzv dövlətləri sırasından yalnız Rusiya tərəfindən təsdiq edilməmişdir). 21 dekabr 2012-ci il 507-IVQ №li Qanunla 2010-cu il sentyabrın17-də Sankt-Peterburq şəhərində imzalanmış "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin daxili işlər nazirliklərinin (polisin) insan alveri ilə mübarizədə əməkdaşlığı haqqında" Sazişə qeyd-şərt ilə qoşulmuşdur. Azərbaycan Respublikası Prezidentinin 7 iyun 2011-ci il 445 saylı Fərmanı ilə 2011-ci il martın 21-də Abu-Dabi şəhərində imzalanmış "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Birləşmiş Ərəb Əmirliklərinin İnsan

alveri ilə Mübarizə üzrə Milli Komitəsi arasında insan alveri ilə mübarizə üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu" təsdiq edilmişdir.

Azərbaycan Respublikası Milli Məclisinin 3 may 2019-cu ildə keçirilən növbəti plenar iclasında daxili işlər nazirinin birinci müavini V.Eyvazov insan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatını təqdim etmişdir. Milli Koordinator bildirmişdir ki, ötən il həyata keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində ölkədə 144 insan alveri, habelə insan alveri məqsədilə sənədlərlə qanunsuz hərəkətlərlə əlaqədar 35 cinayət qeydə alınmış, 28 nəfərdən ibarət 13 cinayətkar qrup zərərsizləşdirilmiş, axtarış elan olunmuş 51 təqsirləndirilən şəxsdən 34-ü (66,6 faizi) tutulmuşdur. İnsan alveri və məcburi əmək cinayətlərinə görə başlanılmış cinayət işlərindən 27-nin istintaqı tamamlanmış, 34 təqsirləndirilən şəxs (29-u qadın, 5-i kişi) məhkəmə məsuliyyətinə verilmiş, 23 insan alverçisi barədə ittihamedici hökmlər çıxarılmışdır. Müəyyən edilən 98 insan alveri qurbanından (82 qadın və 16 kişi, hamısı Azərbaycan Respublikasının vətəndaşı) 71-i istismar məqsədilə Türkiyə Respublikasına, 20-si Rusiya Federasiyasına, 3-ü İran İslam Respublikasına aparılmış, 2-si isə Birləşmiş Ərəb Əmirliklərində, 1-i Malayziyada, 1-i isə Azərbaycanda istismara məruz qalmışdır. Zərərçəkənlərdən 95-i Daxili İşlər Nazirliyinin sığınacağına yerləşdirilərək, hər birinə tibbi, psixoloji, hüquqi yardımlar göstərilmiş, 61-i sosial xidmətlərlə əhatə olunması məqsədilə qeyri-hökumət təşkilatlarına, 92-si Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İnsan alveri qurbanları üçün Yardım Mərkəzinə istiqamətləndirilmişdir. Nəticədə onlardan 32-si işlə təmin edilmiş, 46-sı peşə kursuna göndərilmiş, 69-u ailələrinə qaytarılmış, eləcə də hər birinə 400 manat məbləğində birdəfəlik müavinət ödənilmişdir. Qurbanların övladları da diqqət mərkəzində saxlanılaraq, 25 uşaq məktəbəqədər təhsil proqramına yönəldilmiş, 16-nın atalığı müəyyən edilərək alimentlə təmin olunmasında, 13-nə lazımi sənədlərin alınmasında köməklik edilmişdir. Xarici ölkələrdə əmək fəaliyyəti, təhsil, əcnəbilərlə nikah, məişət

zorakılığı, miqrantların müvəqqəti qeydiyyatı, övladlığa götürmə və digər məsələlərlə bağlı “152 saylı Qaynar xətt” telefon xidmətinə daxil olan 6310 müraciət araşdırılaraq qanunauyğun tədbirlər görülmüşdür.

Uşaq əməyinin istismarının qarşısının alınması məqsədi ilə keçirilən reydlər zamanı ailə mühitindən, pedaqoji və ictimai təsir vasitələrindən kənarda qalan, küçələrdə işləyən və dilənçilik edən 450 uşaq müəyyən edilmişdir. Ümumiyyətlə, ötən il 169 şəxs bu növ cinayətlər üzrə məsuliyyətə cəlb olunmuş, beynəlxalq cinayətkar şəbəkənin ölkəmizdə fəaliyyət göstərməsinin qarşısı alınmış, iki mütəşəkkil dəstə zərrəsizləşdirilmiş, həmçinin qurbanlar mərkəzlərə yerləşdirilmişdir [7].

Global Slavery Index təşkilatı 2018-ci ildə dünyanın 176 ölkəsində 71 mindən çox respondent arasında keçirdiyi sorğu əsasında belə bir rəyə gəlmişdir ki, dünyada insan alveri, xüsusən, kölə əməyi sahəsində ən pis göstərici Şimali Koreya dövlətində mövcuddur. Walk Free Foundation təşkilatının 2018-ci ilə dair köləliyin qlobal indeksi üzrə məlumatlarına da əsasən, əhalinin hər 1000 nəfərinə nisbətdə kölə sayına görə ilk yerdə Koreya Xalq Demokratik Respublikası dayanır. Türkmənistan 11,2 nəfərlə 17-ci yerdə, Belarus 10,9 nəfərlə 20-ci yerdə, Ukrayna 6,4 nəfərlə 49-cu yerdə, Litva 5,8 nəfərlə 59-cu yerdə, Rusiya 5,5 nəfərlə 64-cü yerdə, Moldova 5,5 nəfərlə 65-ci yerdə, Ermənistan 5,3 nəfərlə 68-ci yerdə, Özbəkistan 5,2 nəfərlə 69-cu yerdə, Tacikistan 4,5 nəfərlə 75-ci yerdə, Azərbaycan 4,5 nəfərlə 79-cu yerdə, Gürcüstan 4,3 nəfərlə 80-ci yerdə, Qazaxıstan 4,2 nəfərlə 83 yerdə, Qırğısıstan 4,1 nəfərlə 85-ci yerdə, Latviya 3,9 nəfərlə 89-cu yerdə, Estoniya 3,6 nəfərlə 94-cü yerdə, Çin 2,8 nəfərlə 111-ci yerdə, Böyük Britaniya 2,1 nəfərlə 132-ci yerdə, Almaniya 2,0 nəfərlə 134-cü yerdə, ABŞ 1,3 nəfərlə 158-ci yerdə, Yaponiya 0,3 nəfərlə 167-ci yerdə dayanır [14].

Avropa Şurasının insan alverinə qarşı mübarizə vəziyyətini öyrənmək üçün məxsusi yaratdığı Ekspert qrupunun (GRETA) 2018-ci il məlumatlarına əsasən, hazırda Böyük Britaniya, Belçika, Portuqliya, Serbiya, Kipr və digər ölkələr da

daxil olmaqla, Avropada əməyin istismar edilməsi məqsədi ilə törədilən insan alveri əməllərinin sayında artım meyli müşahidə edilməkdədir. Bu, xüsusən, Yaxın Şərq regionu ölkələrində baş vermiş silahlı münaqişələr, inqilablar nəticəsində miqrasiya proseslərinin vüsət alması ilə bağlıdır. Qaçqınların qeyri-qanuni miqrasıyasını həyata keçirən kriminal qruplaşmalar onların hər növbəti məntəqəyə yerdəyişmələrini külli miqdarda pul vəsaiti müqabilində həyata keçirirlər. Ödəməyə pulları çatmayan miqrantlar son məntəqəyə kriminal qruplaşmalara borclu qalmaları şərti ilə çatdırılır və nəticə etibarı ilə bu borcun qaytarılmasının əvəzi olaraq insan alverinin qurbanına çevrilirlər. Təsadüfi deyildir ki, insan alveri qurbanlarının sayında kişilər çoxluq təşkil edir. Onlar, əsasən, kənd təsərrüfatı, tikinti, balıqçılıq sahələrində işlərə cəlb edilirlər. Qadınlar isə, adətən, təcrid olunmuş iş yerlərində (məsələn, evdə qulluqçu) işə cəlb edilir və bəzən fiziki əməkləri ilə yanaşı, seksual istismarları da baş verir. Cinayətin qurbanları deportasiya və ya insan alveri ilə məşğul olan cinayətkar qrupların qorxusundan bu barədə məlumat verməyə meylli olmadıqlarından, bu sahədə cinayət təqibi hallarına nadir hallarda rast gəlinir [16].

İnkişaf etmiş Qərbi Avropa dövlətlərində insan alverinin qurbanları içərisində dünyanın təkcə geridə qalmış ölkələrindən, Asiya, Avrasiya, Afrika və s. regionlarından deyil, hətta cənub-şərqi Avropa ölkələrindən gələn miqrantlar çoxluq təşkil edir. Bununla belə, müstəqil müşahidəçilərin qənaətinə görə, bu siyahıya Afrika qitəsində yerləşən Nigeriya dövləti liderlik edir. Təhsil almaq, işləmək, insan kimi yaşamaq niyyəti ilə Qərbi Avropa ölkələrinə üz tutan nigeriyalıların əksəriyyəti burada əmək və seksual ustismara məruz qalır. Afrikada, o cümlədən Nigeriyada insan alverinin xarakterik xüsusiyyətlərindən biri burada bir nəfərin bir neçə dəfə satılmaq təhlükəsi riskinin yüksək olmasıdır [17].

UNODC-un dünyanın 142 ölkəsindən əldə etdiyi məlumatlar əsasında hazırladığı, 29 yanvar 2019-cu ildə BMT-nin mənzil qərargahında təqdim etdiyi hesabata əsasən, Şərqi Avropa və Cənubi Qafqaz ölkələrində insan alveri əməlləri

daha çox seksual istismar ilə, Mərkəzi Asiya ölkələrində isə daha çox məcburi əmək ilə müşayiət olunur. Ümumən 59% seksual istismara, 34% isə əməyin istismarına məruz qalır. Cinayətin qurbanlarının təxminən 30%-ni uşaqlar, 70%-ni isə qadınlar və yetkinlik yaşına çatmamış qızlar təşkil edir. Böyrək və qara ciyər köçürmələri əməliyyatlarının təxminən 5-10%-i insan orqanlarının qanunsuz alqı-satqısı hesabına reallaşdırılır. Şərqi Avropa və Mərkəzi Asiyada qurbanların əksəriyyətini yaşlı insanlar, Ermənistan və Moldova istisna olmaqla, dünyada insan alveri qurbanlarının sayında qadınlar çoxluq təşkil edir [21].

Yekun olaraq qeyd edirik ki, dünyada insan alverinin riski altında olan insanların sayına dair dəqiq statistika olmadığından, hazırda bu sahədə dəqiq informasiya əldə etmənin mexanizmlərinin işlənib hazırlanmasına zərurət vardır.

## Biblioqrafiya

1. Azərbaycan Respublikasının İnsan alverinə qarşı mübarizə üzrə Milli Fəaliyyət Planı (2009–2013-cü illər). [Elektron mənbə]. http://www.e-qanun.az/framework/16167

2. Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2014-2018-ci illər üçün Milli Fəaliyyət Planı. [Elektron mənbə]. http://www.e-qanun.az/framework/28165

3. Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair illik (2009-cu il) hesabat. [Elektron mənbə]. https://www.insanalveri.gov.az/ upload/ Hesabat%202010.pdf

4. Azərbaycan Respublikasında İnsan alverinə qarşı Mübarizə üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı. [Elektron mənbə]. http://www.e-qanun.az/framework/ 5977

5. İnsan alverinə qarşı mübarizə - dərs vəsaiti. [Elektron mənbə]. http://iom.az/publications/ files/HANDBOOK_AZ.pdf

6. İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatları. [Elektron mənbə]. https://www.insanalveri.gov.az/?/az/menu/17/

7. Parlamentdə ilginc hostel müzakirələri. [Elektron mənbə]. http://musavat.com/news/ parlamentde-ilginc-hostel-muzakireleri_610665.html

8. Впервые в Узбекистане отметили Всемирный день борьбы с торговлей людьми [Электронный ресурс]. Режим доступа: https://nuz.uz/obschestvo/ 24975-vpervye-v-uzbekistane-otmetili-vsemirnyy-den-borby-s-torgovley-lyudmi.html

9. В Узбекистане растет число жертв торговли людьми [Электронный ресурс]. Режим доступа: https://www.anhor.uz/society/v-uzbekistane-rastet-chislo-zhertv-torgovli-lyudymi

10. Госдеп США признал усилия Узбекистана в борьбе с торговлей людьми [Электронный ресурс]. Режим доступа: https://www.podrobno.uz/cat/ politic/gosdep-ssha-priznal-usiliy/

11. Доклад о торговле людьми за 2017 год: Узбекистан [Электронный ресурс]. Режим доступа: https://uz.usembassy.gov/ru/our-relationship-ru/official-reports-ru/2017-trafficking-persons-report-uzbekistan-ru/

12. Душко Д.А. Уголовно-правовая характеристика торговли людьми. Автореферат дис… канд. юрид. наук. Краснодар, 2009.

13. Жертвы современного рабства [Электронный ресурс]. Режим доступа: https://iz.ru/746825/aleksei-zabrodin/zhertvy-sovremennogo-rabstva-25-mln-chelovek

14. Каждый двухсотый человек в России находится в рабстве [Электронный ресурс]. Режим доступа: https://www.currenttime.tv/a/ 29398007.html

15. Почти треть жертв торговли людьми составляют дети: Доклад УНП ООН [Электронный ресурс]. Режим доступа: https://www.unodc.org/unodc/ru/

frontpage/2016/December/almost-a-third-of-trafficking-victims-are-children_-unodc-report.html

16. Рабство XXI века: европейские эксперты по борьбе с торговлей людьми поднимают тревогу по поводу трудовой эксплуатации [Электронный ресурс]. Режим доступа: https://search.coe.int/directorate_of_communications/Pages/result_details.aspx?ObjectId=09000016807af487

17. Рабство в XXI веке: торговля людьми как прибыльный бизнес [Электронный ресурс]. Режим доступа: https://www.5-tv.ru/news/140651/

18. Рязанцев С.В. Россия в глобальной торговле людьми. Трудовая эксплуатация в «мигрантозависимой» экономике // Международные процессы. Том 13. Номер 1 (40). Январь-март / 2015, с. 6-22.

19. Рязанцев С.В. Торговля людьми с целью трудовой эксплуатации и незаконная трудовая миграция в Российской Федерации: формы, тенденции, противодействие. Москва, 2013.

20. Торговля людьми: в ООН озвучили жуткую статистику [Электронный ресурс]. Режим доступа: https://cursorinfo.co.il/all-news/torgovlya-lyudmi-v-oon-ozvuchili-zhutkuyu-statistiku/

21. Торговля людьми процветает во всех без исключения странах и регионах [Электронный ресурс]. Режим доступа: https://news.un.org/ru/ story/ 2019/01/1348092

22. Trafficking in Persons Report 2005 [Электронный ресурс]. Режим доступа: http://www.state.gov/documents/organization/47255.pdf

23. UNODC Global Report on Trafficking in Persons 2016 [Электронный ресурс]. Режим доступа: http://www.unodc.org/documents/data-and-analysis/glotip/ 2016 _Global_Report_on_Trafficking_in_Persons.pdf